# TƏBİƏTİN MÖCÜZƏSİ XARIBÜLBÜL

**Vüsalə İsmayılova**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu*
*Qərbi Kaspi Universiteti, ismayilovavusala71@gmail.com*

Azərbaycanın Qarabağ torpaqları zəngin flora və faunası ilə fərqlənir. Qədim Şuşa şəhərində bitən Xarıbülbül bitkisi Şuşanın milli rəmzi sayılır.

Xarıbülbül Azərbaycan florasının çox nadir endemik bitkisidir. Bu gözəl bitki Səhləbkimilər (lat.Orxidacea) fəsiləsinin Ofris (*Ophrys lat.*) cinsinə aiddir, latınca Ophrys Caucasica və ya Ophrys Mammosa adlanır, lakin Azərbaycanda bitən bütün növlərə el arasında Xarıbülbül deyilir. Xarıbülbülün digər adı Qafqaz qaş Səhləbidir. *Ophrys* – yunan mənşəli söz olub, mənası "qaş" deməkdir. Alimlər bu adı bitkiyə verməklə məcazi mənada bu gülün digərlərinə üstdən aşağı "baxmağına" eyham vurmuşlar.

Ofrislər bir çox orxideyalar kimi, kök toxumasında müştərək surətdə yaşayan və bitkiyə lazım olan simbiotik göbələklərdən asılıdır. Məhz həmin səbəbdən bu bitkiləri başqa yerdə əkmək mümkün deyil, onlar məhv olur. Ofrislərin tozlanması zərqanadlı (eşşəkarısı və s.) həşəratların köməyi ilə baş verir və onların çiçəkləri bu həşəratların formasını və görünüşünü təkrarlayaraq, həşəratları özünə cəlb edir. Ofrislərin çiçəkləri şirə ixrac etmir, ətri isə demək olar ki, yoxdur. Lakin bəzi növlərinin gülləri müəyyən növ həşəratların dişi fərdlərinə xas və erkək fərdlərini cəlb edən xüsusi qoxuya malik ola bilər. Təbii ki, həşəratları Ofrislərin xüsusi görünüşü ilə yanaşı, bu qoxu da cəlb edir. Bu görünüşə və bəzən də qoxuya maraq göstərən həşəratlar bir güldən digərinə uçur və beləliklə, tozlanma prosesini həyata keçirir. Göbələklərdən və müəyyən növ həşəratlardan asılı olması Ofrisləri ətraf mühit dəyişmələrinə qarşı çox həssas edir. Ona görə də bu bitkilər nadir bitkilər hesab olunur və dövlət tərəfindən qorunurlar. Xarıbülbül (*Ophrys Caucasica*) və Ofrislərin bir çox başqa növləri Azərbaycan Respublikasının "Qırmızı kitab"ında nadir bitki kimi qeydə alınmışdır. Qədim Azərbaycan xalçalarının ornamentlərində də bu əsrarəngsiz bitkinin təsvirinə rast gəlmək olur.

Ofris cinsinin 50-dən çox növü var və bunların bir çoxu Azərbaycanın müxtəlif bölgələrində və ümumiyyətlə Qafqaz ərazisində mövcuddur. Digərləri isə Türkiyə, Yunanıstan, Krım və s. yerlərdə bitir. "Xar" sözü isə tikan mənasını verir, yəni "tikanlı bülbül".

Endemik bitki olan Xarıbülbüldən dərman bitkisi kimi xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə edilir.